Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 19 ” mart tarixli
88 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**əlavə 1**

**“e-bildiriş”in tərtibi, tətbiqi və uçotu**

**QAYDALARI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 4.3-2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq hazırlanmışdır və dövlət büdcəsinə dövlət rüsumunun hesablanması və ödənilməsi üçün “e-bildiriş”in tərtibi, tətbiqi və uçotu qaydalarını müəyyən edir.

1.2. “e-bildiriş” Azərbaycan Respublikası Maliyyə Nazirliyinin “Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)” informasiya sistemi” (bundan sonra - Sistem) vasitəsilə “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tərtib edilərək rəsmiləşdirilir.

## 2. “e-bildiriş”in tərtib edilməsi

2.1. “e-bildiriş” dövlət rüsumu tutan orqanın (qurumun) informasiya sistemində və ya informasiya sistemi olmadıqda, Sistemdə həmin orqan (qurum) üçün yaradılmış elektron kabinetdə elektron qaydada tərtib edilir və ödəyicinin Elektron Hökumət İnfromasiya Sistemindəki (bundan sonra - EHİS) şəxsi kabinetinə ötürülür.

2.2. “e-bildiriş” EHİS vasitəsilə Sistemdən məlumat hədləri əldə edilməklə istifadəçi interfeysində Azərbaycan dilində və bu Qaydalara əlavədə nəzərdə tutulmuş formaya uyğun hazırlanır.

2.3. Bu Qaydaların 2.1-ci və 2.2-ci bəndlərinə uyğun tərtib edilmiş “e-bildiriş” dövlət rüsumu tutan orqanın (qurumun) səlahiyyətli əməkdaşının təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə təsdiqlənir.

2.4. Dövlət rüsumunun ödəyicisi eyni dövlət rüsumu tutulan xidmət və ya hüquqi hərəkətin birdən çox sayda həyata keçirilməsi üçün müraciət etdikdə, “e-bildiriş” seriya və nömrələrin unikallığı qorunmaqla xidmət və ya hüquqi hərəkətin sayına uyğun olaraq toplu nömrələnmə sistemində tərtib oluna bilər.

2.5. “e-bildiriş”də aşağıdakı məlumatlar əks etdirilir:

2.5.1. **“e-bildiriş”** xanasında - “e-bildiriş”in Sistem tərəfindən avtomatik generasiya olunan seriya və nömrəsi, tərtib edilmə tarixi;

2.5.2. **“Dövlət rüsumu tutan orqan”** xanasında - dövlət rüsumu tutan orqanın (qurumun) (tabe orqan (qurum) olduqda həmin orqanın (qurumun) adı və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (bundan sonra - VÖEN);

2.5.3. **“Ödəyicinin tipi”** xanasında – dövlət rüsumunun ödəyicisinin vergi ödəyicisi olmayan fiziki şəxs, fərdi sahibkar, notarius, publik hüquqi şəxs və ya digər hüquqi şəxs olması;

2.5.4. **“Ödəyici”** xanasında - seçilən ödəyicinin növünə uyğun:

1. fiziki şəxs olduqda: adı, atasının adı, soyadı, qeydiyyatda olduğu ünvan, FİN kodu və ya vergi ödəyicisi olduğu halda VÖEN-i, telefon nömrəsi (olduğu halda);

2. hüquqi şəxs olduqda: tam adı, VÖEN-i, hüquqi ünvanı, telefon nömrəsi;

3. əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda adı, atasının adı, soyadı, müvafiq sərhədkeçmə sənədinin seriya və nömrəsi, telefon nömrəsi (olduğu halda);

2.5.5. **“Dövlət rüsumu tutulan xidmət və ya hüquqi hərəkət”** xanasında - adı, həmin xidmət və ya hüquqi hərəkət üzrə dövlət rüsumunun dərəcəsi nəzərdə tutulan Qanunun maddəsi və dövlət rüsumunun məbləği, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı”na uyğun büdcə təsnifatı kodu və büdcə səviyyəsinin kodu;

2.5.6. **“Vəsaiti alan xəzinədarlıq orqanı”** xanasında – Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi, kodu, VÖEN-i və müxbir hesabı;

2.5.7. **“Vəsaiti alan dövlət orqanı”** xanasında - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və ya strukturuna daxil olan qurumun adı, hesab nömrəsi, VÖEN-i;

2.5.8. “**QR Kod (Quick Response Code – Sənədin sürətli məlumat kodu)”** xanasında – xüsusi qurğular vasitəsilə “e-bildiriş”də olan bütün məlumatların oxunmasını özündə əks etdirən sənədin sürətli məlumat kodu.

2.6. “e-bildiriş”də aşağıdakı məlumatlar Sistem tərəfindən avtomatik doldurulur:

2.6.1. “e-bildiriş”in seriyası, nömrəsi və tarixi;

2.6.2. xidmət və ya hüquqi hərəkət üzrə dövlət rüsumunun dərəcəsi nəzərdə tutulan Qanunun maddəsi seçildikdə, dövlət rüsumu tutulan xidmət və ya hüquqi hərəkətin adı, məbləği, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı”na uyğun büdcə təsnifatı kodu, büdcə səviyyəsinin kodu;

2.6.3. vəsaiti alan Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi, kodu, VÖEN-i və müxbir hesabı;

2.6.4. QR kod.

2.7. “e-bildiriş”in tərtibi zamanı operativliyin təmin edilməsi məqsədilə EHİS üzərindən inteqrasiya edilməklə əldə edilmiş VÖEN, FİN kodu əsasında aidiyyəti dövlət informasiya sistemlərində və ehtiyatlarında olan məlumatlar “e-bildiriş”in müvafiq xanalarında avtomatik doldurulur.

2.8. “e-bildiriş”in təkmil sertifikatlı gücləndirilmiş elektron imza vasitəsilə təsdiqləndiyi tarix həmin “e-bildiriş”in tərtib edilmə tarixi sayılır.

2.9. Dövlət rüsumu ödəyicisinin “e-bildiriş”də qeyd olunan telefon nömrəsi dövlət rüsumunun ödənilməsi barədə SMS məlumatın göndərilməsi üçün nəzərdə tutulmuşdur.

2.10. Bu Qaydaların 2.5.4-cü yarımbəndində qeyd olunan məcburi xarakter daşımayan xanadan başqa “e-bildiriş”in bütün xanalarının doldurulması zəruridir və həmin xanalar tam doldurulduqda “e-bildiriş” tərtib edilmiş hesab edilir. Onun boş qalmış sətirləri olduqda, bunlar proqram təminatı tərəfindən “0” (sıfır) və ya “-” (tire işarəsi) kimi qəbul edilir.

## 3. “e-bildiriş”in tətbiq edilməsi

3.1. Bu Qaydaların 2-ci hissəsində nəzərdə tutulmuş qaydada təsdiq edilmiş “e-bildiriş” avtomatik olaraq dövlət informasiya sistemlərinə, ödəniş sistemlərinə, o cümlədən Hökumət Ödəniş Portalına və ödəniş xidməti təchizatçılarına EHİS üzərindən inteqrasiya edilir.

3.2. “e-bildiriş” dövlət rüsumunun ödəyicilərinin müraciəti əsasında dövlət rüsumu tutan orqanlar (qurumlar) tərəfindən elektron qaydada və ya kağız daşıyıcıda təqdim edilir.

3.3. Dövlət rüsumunun ödəyicisi tərəfindən dövlət rüsumu elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə ödənildikdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 mart tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavəyə uyğun doldurulmuş “e-bildiriş”in tətbiqi ilə bağlı dövlət rüsumu üzrə mədaxil qəbzinin nömrəsi və tarixi Sistem tərəfindən avtomatik olaraq verilir və həmin qəbzdəki məlumatlar generasiya olunaraq “e-bildiriş”i formalaşdırır.

3.4. “e-bildiriş”in tətbiqi ilə bağlı dövlət rüsumu üzrə mədaxil qəbzində “e-bildiriş”in seriya və nömrəsinin doldurulması məcburidir.

3.5. Dövlət rüsumu ödənilməmişdən əvvəl dövlət rüsumunun ödəyicisi tərəfindən xidmətin və ya hüquqi hərəkətin göstərilməsindən imtina edildikdə, “e-bildiriş” tərtib olunan zaman texniki səhv olduqda və dövlət rüsumunun məbləği səhv hesablandıqda “e-bildiriş” ləğv edilir.

3.6. “e-bildiriş” dövlət rüsumu tutan orqan (qurum) tərəfindən ləğv edildikdən sonra bu barədə məlumat Sistemə göndərilir (ötürülür).

## 4. “e-bildiriş”in uçotunun aparılması

4.1. “e-bildiriş”in uçotu Sistem vasitəsilə həyata keçirilir.

4.2. “e-bildiriş”in seriyası və nömrəsi Sistem vasitəsilə verilir və təkrarlanmır.

“e-bildiriş”in tərtibi, tətbiqi və uçotu Qaydaları”na
**əlavə**

## “e-bildiriş”in forması

<table>
<tr>
<td>1. E-bildiriş<br>1.1. Seriyası və nömrəsi:<br>1.2. Tərtib edilmə tarixi:</td>
<td>2. Dövlət rüsumu tutan orqan<br>2.1. Adı:<br>2.2. Tabe qurum:<br>2.3. VÖEN-i</td>
<td colspan="2">3. Ödəyicinin tipi<br>☐ Vergi ödəyicisi olmayan fiziki şəxs<br>☐ Fərdi sahibkar<br>☐ Notarius<br>☐ Publik hüquqi şəxs<br>☐ Digər hüquqi şəxs</td>
<td>QR Kod</td>
</tr>
<tr>
<td colspan="5">4. Ödəyici<br>4.1. Ödəyicinin növü</td>
</tr>
<tr>
<td colspan="2">4.1.1. Fiziki şəxs<br>Adı, atasının adı, soyadı:<br>Ünvanı:<br>FİN kodu:<br>VÖEN-i:<br>Telefon nömrəsi:</td>
<td>4.1.2. Hüquqi şəxs<br>Adı:<br>Ünvanı:<br>VÖEN-i:<br>Telefon nömrəsi:</td>
<td colspan="2">4.1.3. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs<br>Adı, atasının adı, soyadı:<br>Sərhədkeçmə sənədinin seriyası və nömrəsi:<br>Telefon nömrəsi:</td>
</tr>
<tr>
<td colspan="2">5. Dövlət rüsumu tutulan xidmət və ya hüquqi hərəkət<br>5.1. Maddə:<br>5.2. Adı:<br>5.3. Məbləğ:<br>(yazı ilə):<br>5.4. Büdcə təsnifatı kodu:<br>5.5. Büdcə səviyyəsinin kodu:</td>
<td>6. Vəsaiti alan xəzinədarlıq orqanı<br>6.1. Adı:<br>6.2. Kodu:<br>6.3. VÖEN-i:<br>6.4. Müxbir hesabı:</td>
<td colspan="2">7. Vəsaiti alan dövlət orqanı<br>7.1. Adı:<br>7.2. Tabe qurum:<br>7.3. Hesabı:<br>7.4. VÖEN-i:</td>
</tr>
</table>